**R.QURBANOVA**
*müəllim*
*e-mail: rena_qurbanova@bk.ru*

DOI:10.48652/l2219-0797-1187-s

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

# HƏSƏN BƏY MƏLİKOV ZƏRDABİNİN AZƏRBAYCAN MƏTBUATINDA GİGİYENA VƏ TİBBƏ DAİR FİKİRLƏRİ

***Açar sözlər:*** *H.Zərdabi, tibb, məktəb gigiyenası, sağlamlıq, mətbuat*
***Ключевые слова:*** *Г.Зардаби, медицина, школьная гигиена, здоровье, пресса*
***Key words:*** *G.Zardabi, medicine, school hygiene, health, press*

H.Məlikovun gigiyenaya və tibbə dair məqalələri həm rus, həm də ana dilli mətbuatda yer alır. Onun rus dilində çıxan "Kaspi" qəzetində bu mövzuda xeyli elmi yazısı işıq üzü görmüşdür. Onlardan "Orqanizmdə yoluxucu mikroblarla mübarizə" (1899, 28 avqust), "Məktəb gigiyenası" (1900, 4 fevral), "Vərəm və onun müalicəsi" (1900, 2 mart), "İnsandakı parazitlər" (1900, 18 iyul) və s. məqalələri göstərmək olar.

"Orqanizmdə yoluxucu mikroblarla mübarizə" məqaləsi XIX əsrin 70-ci illərində əsası qoyulmuş mikrobiologiya elmi, "mikrob nəzəriyyəsi" və onun insanın, həmçinin heyvanların sağlamlığının qorunmasındakı əhəmiyyəti ilə bağlıdır. Əsası rus alimi, zoopataloq İ.İ.Meçnikov və həmkarları tərəfindən qoyulan "mikrob nəzəriyyəsi" əslində biologiya və təbabət elmində böyük kəşf və inqilab idi. İlk dəfə mikrobiologiya elminin yaranması ilə sübut olunurdu ki, həyatda çoxhüceyrəli, gözə görünən heyvanlardan başqa, gözə görünməyən, daha doğrusu, yalnız mikroskopla görmək mümkün olan təkhüceyrəli heyvanlar da mövcuddur. Mikroblar və bakteriyalar bu qəbildəndir. Hər yerdə – həm təbiətdə, həm insan, həm də heyvan orqanizmində mövcud olan belə təkhüceyrəli orqanizmlər surətlə yayılıb çoxalır. Onlar insan və heyvanlar üçün son dərəcə təhlükəli olub bir sıra xəstəliklərin yaranmasına səbəb olur. Ona görə də belə mikrob və bakteriyalardan, təhlükəli parazitlərdən qorunmaq lazımdır.

Həsən bəy mikrob və bakteriyaların xassəsi, növləri, insan və heyvanları müxtəlif xəstəliklərə yoluxdurma riski, yoluxmanın səbəb və xüsusiyyətləri, əlamətləri və s. barədə dolğun elmi məlumat verir. Eyni zamanda bu qorxulu təkhüceyrəlilərdən qorunmağın, onların yaratdığı fəsadları önləməyin və aradan qaldırmağın yolları barədə də dəyərli fikirlər söyləyir. Alim eyni zamanda insan orqanizminin immunitet qabiliyyəti və onun parazitlərə qarşı müqavimət xüsusiyyəti, bu qabiliyyəti necə yaratmaq, həmçinin bəzi xəstəliklərə qarşı peyvənd etmək, peyvəndin əhəmiyyəti və elmi mahiyyəti haqqında da oxuculara kifayət qədər maraqlı bilgilər verir. İnsanlar və heyvanlar arasında geniş yayılmış bir sıra xəstəliklərin adını çəkir, son dövrlərin elmi nailiyyəti əsasında həmin xəstəliklərdən xilas olmağın yollarından söhbət açır.

Alimin adını çəkdiyimiz məqaləsi Azərbaycan elmində mikrobiologiyaya həsr olunmuş ilk elmi məqalə olmaqla yanaşı Azərbaycan ictimaiyyətini ilk dəfə bir sıra yoluxucu xəstəliklər törədən mikroorqanizmlərlə də tanış edir.

H.Zərdabinin 1900-cü ildə (4 fevral) "Kaspi" qəzetində işıq üzü görmüş "Məktəb gigiyenası" məqaləsi aktual bir məsələyə həsr olunmuşdur. Məsələnin aktuallığını müəllif özü dönə-dönə nəzərə çatdırır. Qeyd edir ki, gigiyena elmi gəncdir və bu yaxın illərdə təşəkkül tapmışdır. Buna səbəb isə son dövrlərdə iqtisadiyyat və sənayenin inkişafı, insanların sənaye mərkəzlərinə cəmləşməsi, şəhərlərdə sıxlıq yaranması və s. bir sıra səbəblər ucbatından insan sağlamlığının qorunmasına ciddi ehtiyacın yaranmasıdır. Məhz bu ehtiyac və zərurət gigiyena

elminin yaranmasına səbəb olmuşdur. Müəllif insan xislətində olan belə bir naqis cəhətə də toxunur ki, adamlar çox zaman var-dövlət arxasınca qaçıb öz sağlamlığına o qədər də diqqət yetirməmiş, sərvəti səhhətdən üstün tutmuş, belə bir naqis düşüncə isə nəticədə ona fiziki mənada böyük xətərlər yetirmişdir.

Getdikcə pisləşən antigigiyenik şərait böyüklərdən daha çox uşaqların səhhətinə mənfi təsir göstərir. Çünki onların orqanizmi hələ bərkiməyib və daha dözümsüzdür. Onların səhhətinin qayğısına qalmaq ictimai və tibbi bir vəzifə kimi xüsusi əhəmiyyət kəsb edir: "Uşaq orqanizmi hələ bərkiməyib, formalaşıb başa çatmayıb; belə orqanizm tez zədələnir və yetkinlik yaşına qədər zəifləməyə başlayır, sözün tam mənasında pərvazlanmaqdan qalır. Ona görə də gigiyenistlər gənc nəslin qorunmasına bütün güclərini sərf etməlidirlər. Bu mənada qarşıda duran vəzifə çox genişdir, bunun üçün həm də həmin uşaqların valideynlərinin şəraitini yaxşılaşdırmaq gərəkdir, halbuki hal-hazırda buna nail olmaq müşküldür" (8, 286).

H.Zərdabi böyüməkdə olan övladların səhhətinin qayğısına qalmağı gələcək nəslin taleyi ilə əlaqələndirir. Göstərir ki, nəsillərin davamlı şəkildə sağlamlığı üçün uşaqların sağlamlığı daim diqqət mərkəzində olmalıdır. Bu işdə uşaqların toplaşdığı məkanlar xüsusi gigiyenik diqqət və qayğı tələb edir. Yəni məsələnin həllinə uşaqların cəm olduğu yerdən – məktəbdən başlamaq lazımdır. Müəllif məktəb mühitində gigiyenik normalara əməl edilməsi ilə əlaqədar maraqlı və dəyərli təkliflər verir, pedaqoqların diqqətindən yayınan bu məsələni diqqət mərkəzində saxlamağı tövsiyə edir. Problemin mahiyyətini inandırıcı dəlillərlə açıqlayaraq yazır: "Bunun üçün o yerlərdən başlamaq lazım gəlir ki, bizim uşaqlarımız toplaşırlar, hansı ki, burada heç də az vaxt keçirmirlər, xüsusilə bizim məktəblərdə ki, həmin məktəblərdə uşaq orqanizminin fiziki inkişafına az diqqət yetirirlər: bizim pedaqoqların bütün cəhdi beyinin inkişafına yönəlir; sanki onlar bütün bədəni qida ilə təchiz edən qanla, qidalanmır; o havadan nəfəs almır ki, bütün orqanizm ondan hava udur. Məktəbdə belə bir yanlış baxış ona gətirib çıxarır ki, biz övladlarımızı şikəst edirik və onların çoxu gələcəkdə fiziki inkişafa qabil olmurlar: onların gözü zəifləyir, bel sütunu əyilir, əzələləri süstləşir, nəhayət, pedaqoqların qayğısına qaldıqları beyin özü də bununla birlikdə kütləşir" (8, 286).

Alim məktəblərə həkimlərin cəlb edilməsi barədə ölkədəki tibbi mətbuatın təklifini bəyənir. Yeni yaradılmış gigiyena şöbəsinin tərbiyə və təhsildəki fəaliyyət sferasına müdaxiləsini yaxşı hal sayır.

Eyni zamanda doktor A.A.Lozinskinin təhsil müəssisələrində fiziki tərbiyə ilə bağlı islahatlar keçirmək barədə təklif və tövsiyələrini alqışlayır. Təkliflər sırasında bunlar da var idi ki, hər bir təhsil dairəsində tibbi inspektor vəzifəsi yaradılmalı, təhsil müəssisələrində təlim prosesinə müxtəlif oyunlar, fiziki məşğələlər daxil edilməlidir.

H.Məlikovun "Vərəm və onun müalicəsi" məqaləsinin oxuculara təqdim olunduğu 1900-cü ildə ("Kaspi", 1900, 2 mart) hələ vərəm xəstəliyinin müalicəsi tam şəkildə mümkün deyildi. Bu istiqamətdə uğurlu işlər görülsə də, xəstəliyin ilkin mərhələlərində onu müalicə etmək mümkün olsa da, ağır mərhələlərinin şəfası hələ ki tapılmamışdı. Həsən bəy öz məqaləsində ictimaiyyəti həmin xəstəlik, onun xüsusiyyətləri, ondan qorunmağın yolları, İngiltərə, Almaniya və s. qabaqcıl ölkələrdə xəstəliyin müalicə metodları, insanları ictimai və fərdi həyatda vərəmin əlindən qurtarmaq üsulları və s. barədə faydalı məlumatlar verir. Xəstəliyə yoluxmamaq və ya ondan qurtuluş üçün hansı gigiyenik üsullara əl atmağın zəruri olduğunu oxuculara başa salır. Göstərir ki, bunun üçün ilk növbədə bədənin və yaşayış yerinin təmizliyi bərqərar olmalı, təmiz hava, təmiz qida, təmiz su, işıqlı və quru otaq rejiminə əməl edilməlidir. Müəllif belə bir fars məsəlini xatırladır: "hara işıq və təmiz hava az daxil olursa, oraya həkim tez-tez gəlir" (8, 300).

Alimin "İnsandakı parazitlər" ("Kaspi", 1900, 18 iyul) məqaləsi insanların məişətdə tez-tez üzləşdikləri vacib bir məsələyə həsr olunmuşdur. Burada insanlarda, həmçinin heyvanlarda mövcud olan bəzi parazit qurdlardan və onların törətdikləri fəsadlardan söhbət açılır. Azərbaycan mühitində təbabətin və tibbi biliklərin zəif inkişaf etdiyi tarixi bir şəraitdə zikr olunan

məqalənin böyük əhəmiyyəti var idi. Belə ki, parazit qurdlar insanlar və heyvanlar arasında sıx-sıx müşahidə olunurdu. Onlar müalicə olunmadıqda ağır nəticələrə gətirib çıxarırdı.

Həsən bəy öz məqaləsində elmi maarifləndirmə işi aparmaq, ictimaiyyəti qurd xəstəlikləri, onların törəmə səbəbləri və onlardan qorunma yolları ilə tanış etmək istəyir. Qeyd edir ki, insan və heyvan orqanizmində bəzi qurdlar, məsələn, soliter, trixin və s. geniş yayılmışdır. Onlar heyvandan insana və əksinə yoluxa bilir. Bəzi ev heyvanlarında, o cümlədən donuzlarda həmin parazitlərə daha çox rast gəlinir. Yoluxma prosesindən sonra qarşısı alınmadıqda onlar orqanizmdə ağır xəstəliklərə gətirib çıxarır. Müəllif aydın və elmi şəkildə həmin qurdların xüsusiyyəti, yaşama və yoluxma tərzi, insan və heyvan orqanizmində necə mövcud olmaları və çoxalmaları, orqanizmdə bu parazitlərin mövcudluğunun əlamətləri və s. barədə bilgi verir. Ən başlıcası izah edir ki, insanlar həmin qurdlardan özlərini və uşaqlarını necə qorumalı, yoluxmanın qarşısı necə alınmalı, əgər yoluxma halı baş veribsə, ondan necə qurtulmalı. Alimin tibbi-fiziki tərbiyə ilə bağlı əsərləri sırasında haqqında danışdığımız məqalənin ciddi dəyəri vardır. Buradakı mətləblər bu gün də öz aktuallığını saxlayır.

H.Zərdabinin Azərbaycan dilində də fiziki tərbiyəyə həsr olunmuş xeyli məqaləsi vardır. Bunlar o zaman “Həyat” qəzetində, “Füyuzat”, “Dəbistan”, “Məktəb” kimi jurnallarda, habelə ayrıca kitabça halında nəşr olunmuşdur. Onlardan bəzilərinin təkrar-təkrar çap olunub oxuculara çatdırıldığının da şahidi oluruq. Müəllifin deyilən mövzuya həsr edilmiş əsərlərindən aşağıdakıları göstərə bilərik: “Xörək yemək, su içmək”, “Qan nə tövr bədəndə dövr edir”, “Nəfəs almaq”, “İnsan bədəninin hissələri”, “Həvasi-xəmsə”, “Hifzüs-sihhə”, “Bədəni salamat saxlamaq düsturüləməlidir” (3; 4; 5; 6) və s.

Adı çəkilən əsərlərdən sonuncudan başqa qalan hamısı mətbuat orqanları vasitəsilə oxuculara çatdırılmış, sonradan bəziləri ayrıca kitabça halında işıq üzü görmüşdür. Sonuncu əsər – “Bədəni salamat saxlamaq düsturül-əməlidir” isə ilk dəfə 1914-cü ildə Kiyevdə təhsil alan azərbaycanlı tələbələrin təşəbbüsü və maddi vəsaiti hesabına kitab şəklində nəşr edilmişdir. Onu da deyək ki, bu, alimin fiziki tərbiyəyə dair ən iri həcmli əsəridir. Adını yuxarıda çəkdiyimiz bütün məqalələrdəki məzmun və mətləblər bu sonuncu əsərdə daha müfəssəl şəkildə şərh edilmiş və ümumiləşdirilmişdir. Ona görə də biz təkrardan qaçmaq məqsədilə ayrı-ayrılıqda əvvəlki məqalələr üzərində dayanmayıb məhz bu əsəri analizdən keçirməyi məqsədəuyğun hesab edirik. Çünki mətləblər uyğun və oxşar olduğundan əvvəlki məqalələrə də nəzər salmaq təkrara səbəb ola bilərdi.

Deyildiyi kimi, “Bədəni salamat saxlamaq düsturüləməlidir” əsəri müəllifin ölümündən, sonra əvvəlcə 1914-cü ildə Kiyevdə təhsil alan tələbələrin təşəbbüsü ilə işıq üzü görmüşdür. Əsər 1960-cı ildə H.Zərdabinin “Seçilmiş əsərləri”nə də daxil edilmiş, nəhayət, 2010-cu ildə T.Aydınoğlunun tərtibatı ilə latın əlifbası ilə Bakıda ayrıca kitab halında nəşr edilmişdir.

Azərbaycan dilində “natural gigiyena”ya dair ilk elmi əsər kimi diqqəti cəlb edən kitaba ön sözdə o zaman Kiyevdə təhsil alan və nəşriyyət qrupuna rəhbərlik edən Y.V.Çəmənzəminli əsərin nəşrinin səbəbi ilə bağlı bunları yazır: “Mərhum Həsən bəy Məlikzadə tərəfindən qələmə bir çox elmi əsərlər alınıb, lakin indiyədək onlar camaatımızın himmətsizliyindən çap olunmayıb qalırdı. “Kiyev islam tələbələrinin nəşriyyat heyəti” bu əsəri Həsən bəyin möhtərəm zövcəsinin razılığı ilə nəşr etməyə şüru etdi. Əvvəl “Torpaq, su və hava” ünvanlı kitabça təb olunub, indi isə oxucularımıza “Bədəni salamat saxlamaq düsturüləməli”ni təqdim edirik. Bu kitaba “heyət” tərəfindən haşiyə olaraq bəzi şeylər artırılıb, bir də bir neçə sözün dərci namünasib görüldüyündən bilmərrə ötürülüb, yerləri nöqtələr ilə nişanə olunub, qalanı isə mərhum Həsən bəyin əlyazılarından yazılıb eynən dərc olunur.

Student: Yusif Vəzir” (7, 8-9).

Onu da əlavə edək ki, pedaqoq alimlərimizdən Ə.Seyidov və Y.Talıbov H.Zərdabinin fiziki tərbiyə ilə bağlı görüşləri barədə araşdırma apararkən alimin, əsasən, haqqında söhbət açdığımız bu əsərinə istinad etmişlər (1; 147).

H.Zərdabinin fiziki tərbiyəyə dair dolğun və elmi mündəricəyə malik bu kitabı “natural gigiyena”ya aid səviyyəli bir əsərdir. İnsanların təbiət qanunları ilə yaşamasını əsas götürən (süni yaşayışı, süni məişət və həyat tərzini qəbul etməyən) “natural gigiyena” XIX əsrin II yarısında təşəkkül tapmışdı. Alimin öz əsərini qələmə aldığı dövr üçün gənc elm sahəsi hesab olunurdu. Əsərin 2010-cu il nəşrinə yazılmış ön sözdəki belə bir fikirlə razılaşmaq lazım gəlir: “Başlanğıcını ötən əsrin ikinci yarısından götürən natural gigiyena, naturopatiya hərəkatı Həsən bəy Zərdabinin yaşadığı illərdə Avropada və Amerikada sürətlə yayılmağa başlamışdı. Mədəniyyət və tərəqqi aşiqi olan böyük soydaşımız ixtisasca təbiət alimi olduğundan həmin baxışları dərindən əxz etmiş və öz xalqına çatdırmaq üçün elmi təbliğatın müxtəlif vasitələrindən istifadə etmişdir. Həsən bəy, nəhayət, sağlam yaşamaq qaydaları barədə öz dövrü üçün mükəmməl, bu gün də elmi-gigiyenik dəyərini saxlayan, eyni zamanda populyar üslubu ilə belə nəşrlərə nümunə olan bir kitab yazmışdır” (7, 10).

Alim elmi-kütləvi əsər kimi nəzərdə tutduğu və sadə, aydın, məntiqli bir dildə qələmə aldığı fiziki tərbiyə haqqında risaləsinə yığcam bir müqəddimə də yazmışdır. Burada müəllif “bədəni salamt saxlamaq elmi” adlandırdığı gigiyena elminin cəmi 20-30 yaşı olduğunu, onun təşəkkül tapmasının səbəblərini açıqlayır. Urbanizasiya prosesinin, şəhərlərdə əhalinin sayının yüksəlməsinin, əhali sıxlığının artmasının, sənaye müəssisələrinin çoxalamasının, ekologiyanın pozulmasının nəticəsində şəhər mühitində bir sıra xəstəliklərin meydana gəlməsini xatırladır. Deyilən amilin elmi araşdırılması bunun natəmizlikdən, natəmiz mühitdə xəstəlik törədicilərinin, mikrobların, bakteriyaların və s.-in daha sürətlə çoxalması və yayılmasından əmələ gəldiyini müəyyənləşdirmişdir. Belə bir elmi müəyyənlik “bədəni salamat saxlamaq elmi”nin ərsəyə gəlməsinə təkan vermişdir. Müəllif məsələnin mahiyyətini bu şəkildə şərh edir: “Elə ki, məlum oldu ki, insan nə qədər özünü yaxşı saxlaya, özlərini yaman saxlayanlardan, onlara zikr olan yoluxma naxoşluqları düşəcəkdir, şəhər camaatı və hakimlər hər vilayətdə qanuni-səlaməti bina etdilər və hükəmayi-elm aşkar elədiyi təcrübələri o qanunlar ilə müvafiq edib, bədəni salamat saxlamaq elmini bina etdilər” (7, 12).

Həsən bəy Avropa ölkələrində camaatı zikr olunan elmlə bağlı maarifləndirmək, onları başa salmaq üçün çoxlu sayda kitabların yazılıb nəşr edildiyini nəzərə çatdırır. Öz həmvətənlərinin də “dilimizdə” belə kitablara zəruri ehtiyacını nəzərə alaraq belə bir əsər qələmə aldığını söyləyir.

Alimin risaləsində “bədəni salamat saxlamaq düsturüləməli” ilə bağlı gözəl bir sistem, elmi ardıcıllıq, münasib prinsip vardır. Doğrudan da: “H.B.Zərdabi sağlamlığın gözlənilməsinə təsir edən amillər sırasına evi, havanı, suyu, xörəyi, bədəni təmiz saxlamağı, paltarı, yuxu və yatacağı daxil edir və bunların arasındakı əlaqələri sistemlə, elmi əsaslarla, maraqlı, həyati misallarla təhlil edir. O, sağlamlığın gözlənilməsinə yalnız bioloji, pedaqoji-tibbi problem kimi deyil, sosial problem kimi baxır. Onun fikrincə sağlamlığın qorunması cəmiyyətin, ailənin, bəşəriyyətin qorunmasıdır, mühafizəsidir” (2, 41).

Pedaqoq alim Ə.Seyidov Həsən bəyin əsərinin adını şərti olaraq “Sağlamlığın gözlənilməsi üçün rəhbərlik” şəklində verir ki, məzmunu əhatə etməsi baxımından belə bir adı məqbul saymaq olar (1, 286-287).

H.Zərdabinin fiziki tərbiyə barədə bu mötəbər risaləsi ardıcıl, nizamlı və bir-biri ilə elmi cəhətdən əlaqələnmiş yeddi bölmədən ibarətdir: 1. Ev; 2. Hava; 3. Su; 4. Xörək; 5. Bədəni natəmiz saxlamaq; 6. Paltar; 7. Yuxu və yatacaq paltarı.

Göründüyü kimi, bu komponentlərin hər biri insanın həyatı, şəraiti və səhhəti ilə bağlı mütləq, vacib komponentlərdir. Bütövlükdə insanın yaşayış sferasındakı ən zəruri ünsürləri özündə ehtiva edir. İnsan sağlamlığa – bəşər övladı üçün ən gərəkli, zəruri nemətə nail olmaqdan ötrü zikr olunan komponent və ünsürlərdən necə yararlanmalı, nədən, necə istifadə etməli, öz yaşayışını hansı tərzdə qurmalı, cismani mənada övladını necə tərbiyə edib onun sağlamlığı, qayğısına qalmalıdır? Adı çəkilən bölmələrin hər birində həmin suallara kiçik detallarına qədər cavab tapmaq mümkündür.

**Məqalənin aktuallığı:** Məqalədə görkəmli maarifçi H.B.Zərdabinin hər zaman aktual olan gigiyena və tibb ilə bağlı dövri mətbuatda işıqlandırılan fikirləri və tövsiyələri tədqiqata cəlb edilmiş, hazırki dövrdə təsiri üzə çıxarılmışdır.

**Məqalənin elmi yeniliyi:** Məqalədə ilk dəfə H.B.Zərdabinin gigiyena və tibb ilə bağlı mətbuatda dərc olunmuş məqalələri araşdırılmışdır.

**Məqalənin praktiki və nəzəri əhəmiyyəti.** Məqalədən Azərbaycan məktəb və pedaqoji fikir tarixinin kursunda tədrisində mühazirə və seminar məşğələlərində istifadə etmək olar.

## Ədəbiyyat


1. Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı: Maarif, 1966, 331 s.
2. Ağayev Əhməd bəy. Zərdabinin dəfn mərasimində nitq. “İrşad” qəzeti, Bakı, 1907, 2 dekabr
3. Ağayev Əhməd bəy. Veyl. Əmini-küfr və Nəmrud. Bizim ürəfamız və onları inkar edənlər. “İrşad” qəzeti, Bakı, 1907, 27 dekabr
4. Ağayev Ə. Fərhad Ağazadənin pedaqoji fəaliyyəti və görüşləri: Pedaqoji elm.nam. ...dis., Bakı, 1969, 291 s.
5. Ağayev Ə. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan pedaqoji fikrinin başlıca problemlərinə dair // Azərbaycan məktəbi, 1975, №1, s.48-53
6. Ağayev Ə. Azərbaycan maarifpərvərləri şəxsiyyət haqqında. Bakı: Maarif, 1978, 53 s.
7. Ağayev Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi: Pedaqoji elm.dok. ... dis., Bakı, 1996, 358 s.
8. Ağazadə F. Müəllimlər ictimainə dair. “İrşad” qəzeti, Bakı, 1906, №177, 188


**Р.Курбанова**

**Взгляды Гасан бека Маликова Зардаби на гигиену и медицину в азербайджанской прессе**

***Резюме***


В статье исследуются взгляды и рекомендации видного просветителя Г.Б. Зардаби, опубликованные в периодических изданиях по гигиене и медицине, актуальные и на сегодняшний день. Автором раскрывается их влияние в настоящий период. Каждый из этих компонентов обобщает обязательные, важные составляющие жизни, состояния и здоровья человека, а также важнейшие элементы в сфере жизнедеятельности человека в целом.

Газета Г.Зардаби «Хаят», такие журналы, как «Фуюзат», «Дабистан», «Школа» также опубликовали много статей по физическому воспитанию на азербайджанском языке, а также издали отдельным учебным пособием. Также были детально изучены многие статьи, перепечатанные и представленные читателям.


**R.Gurbanova**

**Hasan bey Malikov Zardabi's views on hygiene and medicine in the Azerbaijani press**

***Summary***


The article explores the views and recommendations of the prominent enlightener HB Zardabi, published in periodicals on hygiene and medicine, which are still relevant today, and reveals their current impact. Each of these components summarizes the absolute, important components of human life, conditions and health, as well as the most important elements in the sphere of human life as a whole.

H.Zardabi's many articles devoted to physical education in the Azerbaijani language in "Hayat" newspaper, magazines such as "Fuyuzat", "Debistan", "School", as well as many articles published in a separate booklet and even reprinted and delivered to readers were studied in detail.


*Rəyçi: dos. N.Abdinova*

*Redaksiyaya daxil olub: 24.05.2022*